# Strateji tərəfdaşlığın qızıl hərflərlə yazılan tarixi

*Mayın 7-də Azərbaycan və Vyetnam arasında münasibətlər yeni strateji mərhələyə qədəm qoydu. Vyetnam Kommunist Partiyası Mərkəzi Komitəsinin Baş katibi To Lamın Azərbaycana rəsmi səfəri ortaq tarixi köklərə, dərin qarşılıqlı hörmətə və üst-üstə düşən milli maraqlara söykənən münasibətlərin strateji dərinliyə və tükənməz potensiala malik olduğunun parlaq və əyani təsdiqi kimi tarixə yazıldı. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Vyetnam Kommunist Partiyası Mərkəzi Komitəsinin Baş katibi To Lamın iştirakı ilə imzalanan "Azərbaycan Respublikası ilə Vyetnam Sosialist Respublikası arasında Strateji Tərəfdaşlığın qurulması haqqında Birgə Bəyanat" və müxtəlif sahələri əhatə edən digər çoxsaylı fundamental sənədlər tərəfdaşlığın konkret hədəflərini və prioritet istiqamətlərini, qarşılıqlı faydalı əməkdaşlığın geniş üfüqlərini müəyyənləşdirdi.*

Azərbaycan və Vyetnam arasında münasibətlərin təməli ötən əsrin ortalarına Vyetnam xalqının azadlığı, müstəqilliyi və milli ləyaqəti uğrunda apardığı çətin, qeyri-bərabər, lakin şərəfli mübarizə dövrünə təsadüf edir. 1959-cu ilin iyul ayında Vyetnam Demokratik Respublikasının Prezidenti xalqının qəlbində əbədi yaşayan unudulmaz lideri, dünyaşöhrətli siyasətçi Ho Şi Minin Azərbaycan Sovet Sosialist Respublikasına tarixi səfəri gələcək əməkdaşlıq üçün möhkəm zəmin yaratmışdır. Səfər çərçivəsində "Ho Əmi" kimi tanınan lider Bakının neft mədənləri, neft emalı zavodları və elmi-tədqiqat institutları ilə yaxından tanış olmuş, Azərbaycanın zəngin neft sənayesindəki misilsiz təcrübəsinin, yüksəkixtisaslı mütəxəssis potensialının gələcəkdə müstəmləkə əsarətindən yenicə qurtulmağa başlayan və iqtisadiyyatını qurmağa çalışan Vyetnam üçün müstəsna əhəmiyyət kəsb edəcəyini uzaqgörənliklə qiymətləndirmişdir. Onun Bakıda neftçilərlə görüşündə söylədiyi "Vyetnamda da dəniz var, bizim də böyük təbii sərvətlərimiz var. Mən inanıram ki, bizim də mütləq neftimiz olacaq... Ümid edirəm və buna qətiyyən şübhə etmirəm ki, Vyetnamın milli azadlıq və müqavimət müharibəsi uğurla başa çatdıqdan sonra siz, Azərbaycan neftçiləri, bizə öz neftimizi tapmaqda, onu çıxarmaqda və emal etməkdə qardaş köməyi göstərəcək, Bakıdakı kimi müasir neft-qaz sənayesi kompleksləri, elmi mərkəzlər tikəcəksiniz" kimi tarixi sözləri Azərbaycan xalqının və mütəxəssislərinin gələcək dəstəyinə olan dərin inamının və ümidinin parlaq ifadəsi idi. Həqiqətən də sonrakı onilliklərdə Azərbaycan mütəxəssisləri, neftçiləri və alimləri Vyetnamın milli neft sənayesinin yaradılmasında, neft yataqlarının kəşfiyyatında, istismarında və yüksəkixtisaslı milli kadrların hazırlanmasında əvəzsiz və fədakar rol oynadılar.

Sovet İttifaqı dövründə Azərbaycanın böyük birliyin tərkib hissəsi olmasına baxmayaraq, Vyetnam xalqının imperializmə və xarici təcavüzə qarşı apardığı qəhrəmanlıq mübarizəsinə göstərilən hərtərəfli və səmimi dəstək heç vaxt unudulmur və daim böyük minnətdarlıq hissi ilə xatırlanır. Bu, təkcə siyasi bəyanatlar və mənəvi həmrəyliklə məhdudlaşmır, həm də konkret addımlarla, xüsusilə də Vyetnam üçün həyati əhəmiyyət kəsb edən yüksəkixtisaslı milli kadrların hazırlanması sahəsində özünü daha qabarıq şəkildə büruzə verirdi. Beş minə yaxın gənc vyetnamlı tələbənin məhz Azərbaycanda, xüsusilə neft, geologiya, kimya, mühəndislik və digər fundamental texniki ixtisaslar üzrə ali təhsil alması və onların bu gün müasir, dinamik inkişaf edən Vyetnamın iqtisadiyyatının müxtəlif sahələrində, dövlət idarəçiliyində və elmi-texniki tərəqqisində mühüm və aparıcı rol oynaması iki ölkə arasında səmimi və sarsılmaz bağların mövcudluğunun danılmaz və parlaq nümunəsidir.

Xalqımızın müdrik və uzaqgörən lideri Heydər Əliyevin Azərbaycan-Vyetnam münasibətlərinin qurulmasında və inkişaf etdirilməsində müstəsna və tarixi xidmətləri olmuşdur. O, 1983-cü ildə SSRİ Nazirlər Soveti sədrinin birinci müavini kimi məsul vəzifədə çalışarkən Vyetnam Sosialist Respublikasına son dərəcə mühüm və strateji əhəmiyyət kəsb edən rəsmi səfər etmişdir. Bu səfər xüsusilə uzun illər davam edən dağıdıcı Fransa müstəmləkəçiliyi və ABŞ ilə aparılan dəhşətli, misli görünməmiş müharibədən yenicə çıxmış, ölkəsinin infrastrukturunun böyük hissəsini itirmiş, mürəkkəb regional geosiyasi təhdidlərlə və iqtisadi çətinliklərlə üzləşən Vyetnam xalqı və onun rəhbərliyi üçün çox böyük mənəvi, siyasi və iqtisadi dəstək ifadə edirdi. Heydər Əliyevin bu tarixi səfəri iki ölkə arasında geniş spektrli ictimai-mədəni, elmi-texniki və humanitar əlaqələrin qurulması və sistemli şəkildə inkişaf etdirilməsi üçün möhkəm və etibarlı zəmin yaratmış, gələcək ikitərəfli əməkdaşlığın əsas konturlarını və strateji arxitekturasını formalaşdırmışdır.

Vyetnam xalqı 1858-ci ildən etibarən Fransanın qəddar və istismarçı müstəmləkəçiliyinin bütün dəhşətlərini, onun yaratdığı sosial-iqtisadi fəlakətləri və mənəvi təhqirləri taleyində yaşamışdır. 1887-ci ildə müasir Vyetnam, Laos və Kamboca əraziləri zorla birləşdirilərək Fransız Hind-Çini adlanan süni qurum yaradıldı. Bu uzun və zülmətli dövr Vyetnamın misilsiz təbii sərvətlərinin - qiymətli kömür yataqlarının, bərəkətli düyü tarlalarının və digər qiymətli yeraltı və yerüstü resursların fransız şirkətləri və müstəmləkə administrasiyası tərəfindən amansızcasına və plansız şəkildə istismarı, assimilyasiya siyasətinə məruz qalması ilə xarakterizə olunurdu. Fransız müstəmləkəçiləri hakimiyyətlərini möhkəmləndirmək üçün "parçala və hökm sür" siyasətini məharətlə tətbiq edir, Vyetnam cəmiyyətində süni ziddiyyətlər yaradır, yerli xalqı faktiki olaraq qul əməyinə məcbur edir, onların minillik tarixə malik zəngin dilini, özünəməxsus mədəniyyətini, milli adət-ənənələrini və dini inanclarını kobud şəkildə qadağan etməyə, sıxışdırmağa və məhv etməyə çalışırdılar. Ən kiçik etiraz cəhdi belə qəddarlıqla, amansızlıqla yatırılır, kütləvi şəkildə həyata keçirilən edamlar, heç bir məhkəmə qərarı olmadan törədilən qətllər, insan ləyaqətini alçaldan işgəncələr və sürgünlər gündəlik hala çevrilirdi. Fransanın bu qeyri-insani müstəmləkəçilik siyasəti nəticəsində yüz minlərlə günahsız vyetnamlı doğma torpaqlarında həyatını itirmiş, saysız-hesabsız insan dəhşətli fiziki və mənəvi əzablara, işgəncələrə məruz qalmışdır. Məsələn, paytaxt Hanoydakı məşhur və adı dəhşətlərlə çəkilən "Hoa Lo" həbsxanası fransız işğalçılarının vyetnamlı azadlıq mübarizlərinə, vətənpərvərlərə və sadəcə fərqli düşünən insanlara qarşı törətdiyi saysız-hesabsız vəhşiliklərin, xüsusi amansızlıqla həyata keçirilən işgəncə tədbirlərinin qanlı və dəhşətli simvoluna çevrilmişdir. Bu gün həmin tarixi həbsxana eləcə də Vyetnamın müxtəlif şəhər və bölgələrində fəaliyyət göstərən, Fransa kolonializminin bütün eybəcərliklərini, saysız-hesabsız cinayətləri, insanlığa sığmayan əməllərini bütün çılpaqlığı ilə əks etdirən çoxsaylı komplekslər o qaranlıq dövrün acı və danılmaz həqiqətlərini dünya ictimaiyyətinə və gələcək nəsillərə çatdırmaqla yanaşı, Vyetnam xalqının milli azadlığı, müstəqilliyi və insan ləyaqəti uğrunda apardığı mübarizənin nə qədər çətin, məşəqqətli, lakin bir o qədər də şərəfli və qürurverici olduğunu bir daha bütün dünyaya xatırladır. Vyetnam xalqı milli qürurunu, azadlıq eşqini və mübarizə əzmini bir an belə itirməmiş, Ho Şi Min kimi dahi və uzaqgörən liderlərin rəhbərliyi altında yumruq kimi birləşərək ayağa qalxmış və uzun illər davam edən qətiyyətli, fədakar mübarizə nəticəsində 1954-cü ildə tarixi Dien Bien Fu qələbəsi ilə Fransa kolonializminə birdəfəlik son qoymuşdur.

Vyetnam xalqının sınaqları bununla bitmədi. Fransız müstəmləkəçiliyinin ağır nəticələrindən yenicə qurtulmağa çalışan Vyetnam xalqı qısa müddət sonra daha ağır sınaqla, dünyanın supergücü olan Amerika Birləşmiş Ştatlarının birbaşa hərbi müdaxiləsi ilə üzləşdi. İyirmi ilə yaxın davam edən müharibə Vyetnam torpaqlarına saysız-hesabsız dağıntılar, fəlakətlər gətirdi, şəhər və kəndləri viran qoyuldu, mülki əhali arasında yüz minlərlə insanın həlak olmasına, milyonlarla insanın yaralanmasına və şikəst olmasına, ekoloji fəlakətlərə səbəb oldu. "Agent Orange" kimi zəhərli kimyəvi maddələrin genişmiqyaslı tətbiqi nəticəsində Vyetnam təbiətinə və insan sağlamlığına sağalmaz zərbələr vuruldu. Lakin Vyetnam xalqı bütün bu təcavüzlərə, kütləvi bombardmanlara, misli görünməmiş çətinliklərə və insan itkilərinə baxmayaraq, vəteninin azadlığı və birləşməsi uğrunda apardığı mübarizədən bir an belə çəkilmədi, misilsiz əzmkarlıq, qəhrəmanlıq və yenilməz iradə nümayiş etdirərək 1975-ci ilin aprelində qeyri-bərabər mübarizədə də möhtəşəm və tarixi qələbə qazandı, ölkənin uzun illərdən sonra birləşməsinə və tam suverenliyinin bərpasına nail oldu.

Vyetnamın şanlı və dünya əhəmiyyətli qələbəsi XX əsr dünya tarixində imperializmə, xarici müdaxiləyə və müstəmləkəçiliyə qarşı aparılan milli azadlıq mübarizələrinin ən parlaq nümunələrindən biri kimi tarixə yazıldı. Məhz bu baxımdan, Azərbaycan xalqının da öz doğma torpaqlarını otuz ilə yaxın davam edən Ermənistan işğalından azad etmək üçün 2020-ci ildə apardığı 44 günlük Vətən müharibəsində qazandığı şanlı və tarixi Zəfər və bununla da öz ərazi bütövlüyünü və suverenliyini tam bərpa etməsi ilə mərd Vyetnam xalqının onilliklər boyu apardığı qəhrəmanlıq mübarizəsi arasında dərin mənəvi bağlılıq, tarixi paralellər mövcuddur. Hər iki xalq azadlığı, suverenliyi və ərazi bütövlüyü uğrunda mübarizə aparmağın, qurbanlar verməyin nə demək olduğunu çox yaxşı bilir və bu səbəbdən də bir-birinin tarixi uğurlarını və qələbələrini böyük səmimiyyətlə, qürurla alqışlayır və dəstəkləyir.

Azərbaycan dövlət müstəqilliyini bərpa etdikdən sonra 23 sentyabr 1992-ci ildə Azərbaycan ilə Vyetnam arasında rəsmi diplomatik əlaqələr qurulmuş və münasibətlər keyfiyyətcə fərqli dinamika ilə inkişaf etməyə başlamışdır. Bu inkişafda yüksək səviyyəli qarşılıqlı səfərlər müstəsna rol oynamışdır. Xüsusilə, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2014-cü ilin may ayında Vyetnam Sosialist Respublikasına ilk rəsmi dövlət səfəri və bunun ardınca Vyetnam Sosialist Respublikasının ozamankı Prezidenti Çıonq Tan Şanqın 2015-ci ilin may ayında Azərbaycana tarixi rəsmi səfəri ikitərəfli münasibətlərin inkişafında mühüm səhifə açmış, siyasi, iqtisadi-ticari, enerji, mədəni-humanitar və digər bütün sahələr üzrə əməkdaşlığın hərtərəfli genişlənməsinə və dərinləşməsinə güclü təkan vermişdir. Bu strateji əhəmiyyətli səfərlər zamanı imzalanan çoxsaylı sənədlər, əldə olunan mühüm razılaşmalar və aparılan səmimi, konstruktiv danışıqlar iki ölkə arasında münasibətlərin ümumi ruhunu və keyfiyyətini əsaslı şəkildə dəyişərək gələcək uzunmüddətli inkişaf üçün möhkəm və etibarlı hüquqi və siyasi zəmin yaratmışdır. Prezident İlham Əliyev 2014-cü ildə Hanoy şəhərində olarkən Azərbaycanın müxtəlif ali məktəblərinin çoxsaylı vyetnamlı məzunları ilə səmimi və unudulmaz görüş keçirmiş, onların Azərbaycanda keçirdikləri tələbəlik illəri ilə bağlı xoş xatirələrini, səmimi fikirlərini və təkliflərini böyük diqqətlə dinləmişdir. Məhz bu görüşün məntiqi nəticəsi olaraq, 2015-ci ildə Hanoyda Azərbaycan ali təhsil ocaqlarının minlərlə məzununu sıralarında birləşdirən Vyetnam-Azərbaycan Dostluq Assosiasiyası rəsmən təsis edilmişdir ki, bu da iki ölkə arasında xalq diplomatiyasının və humanitar əlaqələrin inkişafına mühüm töhfədir.

Vyetnam Kommunist Partiyası Mərkəzi Komitəsinin Baş katibi To Lamın mayın 7-də Azərbaycan Respublikasına rəsmi səfəri çərçivəsində keçirilən çoxsaylı yüksək səviyyəli görüşlər, tədbirlər və imzalanan fundamental sənədlər paketi Azərbaycan-Vyetnam münasibətlərinin son illərdəki dinamik inkişafının məntiqi kulminasiya nöqtəsi və gələcəyə yönəlik dərin strateji baxışın, sarsılmaz siyasi iradənin parlaq təcəssümü oldu.




Qəbul edilən Bəyanat iki ölkə arasında siyasi dialoqun daha da dərinləşdirilməsi, qarşılıqlı faydalı iqtisadi-ticari əlaqələrin həcminin və keyfiyyətinin artırılması, enerji təhlükəsizliyi, bərpaolunan enerji mənbələri, nəqliyyat və logistika, kənd təsərrüfatı və qida təhlükəsizliyi, təhsil və elmi tədqiqatlar, mədəniyyət və incəsənət, turizm potensialının reallaşdırılması, müdafiə sənayesi və hərbi-texniki əməkdaşlıq, eləcə də regional və beynəlxalq təhlükəsizlik kimi geniş və müxtəlif sahələri əhatə edən əməkdaşlığın daha yüksək və hərtərəfli strateji tərəfdaşlıq səviyyəsinə qaldırılması üçün möhkəm, etibarlı hüquqi və siyasi baza rolunu oynayacaq.

Energetika sahəsində əməkdaşlıq uzun illərdir ki, Azərbaycan-Vyetnam münasibətlərinin ənənəvi, aparıcı və eyni zamanda böyük perspektivlərə malik olan prioritet istiqamətlərindən biridir. Səfər zamanı "Azərbaycan Respublikasının Energetika Nazirliyi ilə Vyetnam Sosialist Respublikasının Sənaye və Ticarət Nazirliyi arasında energetika sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu"nun imzalanması bu vacib sahədə daha geniş imkanlar və üfüqlər açır. Azərbaycan Dövlət Neft Şirkətinin beynəlxalq ticarət əməliyyatlarını həyata keçirən qolu olan "SOCAR Trading SA"nın Vyetnamın əsas neft emalı müəssisəsi "Dung Quat" neft emalı zavodu ilə uzunmüddətli və qarşılıqlı faydalı əməkdaşlığı uğurla və dinamik şəkildə davam etməkdədir. Rəsmi məlumatlara görə, 2010-cu ildən 2025-ci il yanvar ayının sonuna qədər "SOCAR Trading Singapore" tərəfindən "Dung Quat" NEZ-ə ümumilikdə təxminən 31,7 milyon barel həcmində yüksəkkeyfiyyətli 35 partiya xam neft tədarük edilmişdir ki, bu da təxminən 2,55 milyard ABŞ dolları dəyərində olan 4,34 milyon ton neftə bərabərdir. Baş katib To Lamın səfəri zamanı "Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti ilə Vyetnam Milli Sənaye Enerji Qrupu arasında Anlaşma Memorandumu"nun və "SOCAR Trading Singapore PTE LTD" ilə "Binh Son Refining and Petrochemical JSC" arasında Anlaşma Memorandumu"nun imzalanması iki ölkənin neft-qaz sektorunda mövcud səmərəli əməkdaşlığın daha da dərinləşəcəyinə birgə investisiya layihələrinin, o cümlədən kəşfiyyat, hasilat, emal və neft-kimya sahələrində yeni layihələrin icrasına əlverişli zəmin yaradacağına heç bir şübhə yeri qoymur.

Müdafiə və təhlükəsizlik sahəsində əməkdaşlığın gücləndirilməsi də hər iki ölkə üçün strateji əhəmiyyət daşıyır. "Azərbaycan Respublikasının Müdafiə Nazirliyi ilə Vyetnam Sosialist Respublikasının Milli Müdafiə Nazirliyi arasında müdafiə sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu"nun imzalanması hərbi təhsil, birgə təlimlər, hərbi-texniki əməkdaşlıq, mütəxəssis və təcrübə mübadiləsi, eləcə də kibertəhlükəsizlik kimi aktual məsələlərdə yeni perspektivlər və imkanlar açır. Hüquq və ədliyyə sahəsində isə "Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi ilə Vyetnam Sosialist Respublikasının Ədliyyə Nazirliyi arasında 2025-2027-ci illər üçün nəzərdə tutulan Əməkdaşlıq Proqramı", qanunvericilik bazasının təkmilləşdirilməsi, məhkəmə-hüquq islahatları və hüquq kadrlarının hazırlanması sahəsində qarşılıqlı faydalı təcrübə mübadiləsinə geniş imkanlar yaradacaq. Müasir dövrün tələblərinə cavab verən elm, texnologiya, innovasiya və rəqəmsal inkişaf sahəsində imzalanmış Anlaşma memorandumları yüksək texnologiyalar parklarının yaradılması, süni intellektin tətbiqi, rəqəmsal transformasiya və startap ekosistemlərinin inkişafı istiqamətində birgə layihələrin həyata keçirilməsini əhəmiyyətli dərəcədə stimullaşdıracaq.

Mədəniyyət sahəsində əməkdaşlıq da Azərbaycan-Vyetnam münasibətlərində dinamik mərhələyə qədəm qoyur. Bu istiqamətdə imzalanan Anlaşma Memorandumu iki ölkə arasında qarşılıqlı mədəniyyət günlərinin, incəsənət sərgilərinin, musiqi və folklor festivallarının müntəzəm keçirilməsi, teatr və musiqi kollektivlərinin qarşılıqlı qastrol səfərlərinin təşkili, kitab tərcüməsi və nəşriyyat işinin canlandırılması, eləcə də turizm potensialının daha səmərəli istifadəsi üçün əlverişli imkanlar yaradır. Bu kontekstdə, səfər çərçivəsində Bakının möhtəşəm "Gülüstan" sarayında Vyetnamın istedadlı rəssamlarının əsərlərindən ibarət sərginin təşkili və ali qonağın şərəfinə verilən rəsmi dövlət ziyafətində Azərbaycan və Vyetnam musiqisinin incilərindən ibarət rəngarəng konsert proqramı mədəni mübadilənin və xalqlar arasında dostluğun möhkəmləndirilməsinin əhəmiyyətini bir daha vurğulamışdır. Bundan əlavə, tarixi yaddaşın qorunması və gələcək nəsillərə ötürülməsi baxımından mühüm əhəmiyyət kəsb edən arxiv işi sahəsində iki ölkə arasında informasiya axınının sürətləndirilməsi və obyektiv məlumat mübadiləsinin təmin edilməsi məqsədilə Azərbaycan Dövlət İnformasiya Agentliyi ilə Vyetnam İnformasiya Agentliyi arasında müvafiq Saziş, həmçinin iki ölkənin iqtisadiyyatları üçün böyük əhəmiyyət daşıyan kiçik və orta biznesin inkişafına dəstək məqsədilə Birgə Biznes Şurasının yaradılması haqqında mühüm sənədlər imzalanmışdır.

Beynəlxalq təşkilatlar, xüsusilə də Qoşulmama Hərəkatı, Birləşmiş Millətlər Təşkilatı və onun ixtisaslaşmış qurumları, Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri üzrə Müşavirə kimi nüfuzlu platformalar çərçivəsində Azərbaycan və Vyetnam arasında səmərəli və konstruktiv əməkdaşlıq uğurla davam edir. Hər iki ölkə beynəlxalq hüququn norma və prinsiplərinə sadiqlik nümayiş etdirir, bir-birinin suverenliyini və ərazi bütövlüyünü dəstəkləyir, aktual qlobal və regional məsələlərdə əksər hallarda ortaq və ya yaxın mövqedən çıxış edirlər. Azərbaycanın Qoşulmama Hərəkatına sədrliyi dövründə Vyetnam tərəfindən göstərilən fəal dəstək Azərbaycan tərəfindən yüksək qiymətləndirilir.

Vyetnamın beynəlxalq və regional nəqliyyat dəhlizlərinə, xüsusilə də Şimal-Cənub və Şərq-Qərb kimi strateji əhəmiyyətli layihələrə olan marağı da xüsusi olaraq qeyd edilməlidir. Hind okeanı və Cənubi Çin dənizi vasitəsilə İran İslam Respublikası üzərindən Azərbaycana və daha sonra Rusiya Federasiyasına, eləcə də Qara dəniz və Türkiyə vasitəsilə Avropa bazarlarına çıxış əldə etmək imkanları, həmçinin Çin-Qazaxıstan-Xəzər dənizi-Azərbaycan-Gürcüstan-Avropa marşrutu üzrə həyata keçirilən daşımalar Vyetnam üçün böyük iqtisadi və logistik cəlbediciliyə malikdir. Azərbaycanın son illərdə sürətlə inkişaf edən müasir tranzit potensialı, əlverişli coğrafi mövqeyi və modernləşdirilmiş nəqliyyat infrastrukturu dəhlizlərinin səmərəliliyini və rəqabət qabiliyyətini əhəmiyyətli dərəcədə artırır.

Vyetnam Kommunist Partiyası Mərkəzi Komitəsinin Baş katibi cənab To Lamın Azərbaycan Respublikasına tarixi və son dərəcə məhsuldar səfəri, eləcə də səfər çərçivəsində imzalanan çoxsaylı perspektivli sənədlər, iki dost ölkə arasında onilliklər boyu formalaşan münasibətlərin həqiqətən də hərtərəfli strateji tərəfdaşlıq səviyyəsinə yüksəldiyini birmənalı şəkildə təsdiqləyir. Azərbaycan və Vyetnam ortaq dəyərlər və hədəflər istiqamətində inamla irəliləyir, gələcəyə böyük ümidlə baxırlar.

**Yusif ŞƏRİFZADƏ,**
**"Respublika".**